**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə elan edilmiş "Heydər Əliyev ili" çərçivəsində Salyan rayonunda yubiley tədbirlərinə başlanılmışdır.**

# "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur"



Salyan Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının və Biləsuvar Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Tarix-Diyarşünaslıq Muzeyində ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur" mövzusunda "dəyirmi masa" keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının nümayəndələri, mədəniyyət işçiləri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, ziyalılar və gənclər iştirak etmişlər.

Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunmuşdur. Sonra dahi rəhbərin Azərbaycanın müstəqilliyi yolunda fəaliyyəti barədə videoçarx nümayiş etdirilmişdir.

Çıxış edənlər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında, müstəqilliyimizin əbədi və dönməz xarakter almasında tarixi xidmətlərindən danışmış, həmçinin ulu öndərin Salyana etdiyi tarixi səfərlərdən unudulmaz anları xatırlatmışlar.

Çıxış edənlər əminliklə bildirmişlər ki, ümummilli liderin müəyyənləşdirdiyi inkişaf yolu onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

**Rüstəm MƏLİKOV,**
**"Qələbə" qəzetinin baş redaktoru**

**Salyan**